# Milli Qəhrəmanın bədii obrazı Sumqayıt səhnəsində

**Sumqayıt Dövlət Dram Teatrının repertuarında azadlıq mücadiləsinin qəhrəmanlarına həsr edilən tamaşalar geniş yer alır. Bu günlər Qarabağ müharibəsinin iştirakçısı, Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımova həsr olunmuş "Ölməz" adlı səhnə əsərinə ictimai baxış keçirilmişdir.**



Tamaşa "Heç kim unudulmur, heç nə yaddan çıxmır" adlı yeni teatr layihəsi çərçivəsində hazırlanıb. Əsərin müəllifi Elşən Sərxanoğludur. Tamaşanın quruluşçu rejissoru Xalq artisti Firudin Məhərrəmov, quruluşçu rəssamı Elşən Sərxanoğlu, rejissoru Ümid Abbaszadədir. Monotamaşada gənc aktyor Elay Xasıyev çıxış edir.

Tamaşa dərin emosional təsiri, vətənpərvərlik ruhu və real hadisələrə söykənən dramatik gedişi ilə auditoriya tərəfindən böyük maraqla qarşılanıb. Səhnə əsərində Natiq Qasımovun igidliyindən bəhs edilir. 6 döyüş yoldaşını itirdikdən sonra 5 gün ərzində təkbaşına müdafiə etdiyi alban kilsəsində mühasirəyə düşən qəhrəmanımız sonadək ermənilərə müqavimət göstərir və yalnız Xocalıda girov götürülmüş 22 dinc sakinin həyatını xilas etmək üçün təslim olmağa razılaşır. O, hətta təslim olarkən belə Azərbaycan bayrağını düşmənə vermir. Natiq Qasımov əsirlikdə işgəncə ilə qətlə yetirilir.

Prezident İlham Əliyevin sərəncamı ilə o, ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb.

"Ölməz" tamaşasının rəsmi premyerası sentyabr ayına planlaşdırılır.

*Aki ƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 1 avqust (№158).- S.7.